BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№2 Humanitar elmlər seriyası 2010

# MÜNAQİŞƏLƏRİN CƏMİYYƏTDƏ YERİNƏ YETİRDİKLƏRİ NEQATİV VƏ POZİTİV FUNKSİYALAR

**ELŞAD MIRBƏŞIR OĞLU**
***Bakı Dövlət Universiteti***
***e.m@bk.ru***

*Münaqişələr cəmiyyətdə neqativ və pozitiv funksiyalar yerinə yetirirlər. Bu funksiyaların hər biri özlərinin səciyyəvi xüsusiyyətləri ilə seçilirlər. Təqdim olunan elmi məqalədə siyasi münaqişələrin cəmiyyətdəki yeri və rolu araşdırılaraq, onun neqativ və pozitiv funksiyaları ətraflı təhlil edilir. Əsaslandırılır ki, siyasi münaqişələrin mövcudluğu ümumilikdə neqativ hal kimi qəbul edilsə də, onlar pozitiv funksiyalar da yerinə yetirirlər.*

Münaqişələrin cəmiyyətdəki pozitiv və neqativ funksiyaları özünəməxsus səciyyəvi xüsusiyyətləri ilə seçilirlər.

Münaqişə, hər şeydən öncə, arzuolunmaz hal kimi qəbul edilir. Deməli, münaqişə neqativ funksiyalara da malikdir. Bu məsələ daim tədqiqatçılar arasında mübahisə predmetidir. Bir sıra tədqiqatçılar cəmiyyətdə münaqişələrin mövcudluğunun müsbət tərəflərini qeyd etdiyi halda, digərləri, bəşəriyyət üçün təhlükəli olması baxımından onların, ümumiyyətlə yolverilməzliyində israr edirlər. Həqiqətən də, münaqişələr cəmiyyətdə bəzi müsbət dəyişikliklərə səbəb olmasına baxmayaraq, onların dağıdıcı-məhvedici təsirləri daha böyük olur. Təsadüfi deyildir ki, məhşur tədqiqatçı T.Parsons özünün münaqişəyə dair “struktur-funksional nəzəriyyəsində” onu sosial sistemi dağıdan bir amil kimi təqdim edir (1, 267).

Digər bir məhşur tədqiqatçı Z.Freyd də münaqişələri cəmiyyətdə əsasən arzuolunmaz hal kimi qiymətləndirmişdir. Onun fikrincə münaqişə, sonradan siyasi davranışa təsir edən əsəb və depresiya mənbəyidir (2, 121).

Münaqişələrin neqativ funksiyaları içərisində birinci olaraq onların çoxsaylı insan təlafatına və dağıntılara səbəb olmasını göstərmək olar. Təxmini hesablamalara görə beş min il ərzində insanlar arasında 14500-dən çox qanlı toqquşmalar baş vermişdir. Bu toqquşmalar nəticəsində 3,5 milyarddan çox insan təlfatı ilə yanaşı planet əhalisinin bütün lazımi təlabatlarını bir neçə min il ərzində ödəyə biləcək dəyərlər də məhv olmuşdur (3, 14).

Münaqişələr siyasi sistemin zəifləməsinə səbəb olurlar. Məlumdur ki, cəmiyyətdə daim hakimiyyət uğrunda mübarizə aparan siyasi qüvvələr mövcud olur. Həmin qüvvələr arasındakı qarşıdurmalar kəskinləşdikdə isə siyasi sistem nəzərəçarpacaq dərəcədə zəifləyə bilər. Siyasi qüvvələr arasında hakimiyyət və digər dəyərlər uğrunda mübarizə heç də həmişə tezliklə onlardan birinin qələbəsi ilə nəticələnmir. Belə mübarizələr bəzən irimiqyaslı uzunsürən ictimai proses şəklini alır.

Daxili siyasi münaqişələrin böyük əksəriyyəti etnosların status uğrunda

mübarizələri ilə bağlı olur. Hər bir etnos da hesab edir ki, məhz siyasi hakimiyyətdə təmsil olunmaqla və ya hakimiyyətə hər hansı təsir vasitələrinə malik olmaqla maraqlarını təmin edə bilərlər. Əksər hallarda isə etnoslar çıxış yolunu birmənalı şəkildə "mərkəzdən qopmaqla" "suverenlik" əldə etməkdə görürlər. Sözsüz ki, belə suverenlik adətən bütövlükdə etnosun maraqlarına xidmət etmir. Tarixi müşahidələr göstərir ki, qeyd olunan suverenlik müəyyən bir qrupun hakimiyyətə yiyələnməsinə daha çox yarayır. Etnosların suverenlik uğrundakı mübarizələrinin əsasını bir qayda olaraq separatçı hərəkatlar təşkil edir. Göründüyü kimi, münaqişə siyasi sistemin bu cür gərgin daxili və xarici şərtlər daxilində fəaliyyət göstərməsinə səbəb olur. Belə bir vəziyyətdə isə siyasi sistem nəinki zəifləyir, hətta onun tamamilə dağılması da baş verə bilər (4, 57-58).

Münaqişələr öz subyektləri arasında düşmənçilik meyllərini daha da dərinləşdirməklə də neqativ funksiya yerinə yetirmiş olur. Siyasi münaqişənin bu neqativ funksiyası haqqında K.Klauzeviçin ifadə etdiyi bu sözlər daha dolğun təsəvvür yaradır. O, deyirdi: "rəqib bizim iradəmizə tabe olmayırsa, onu daha da pis vəziyyətə salmalıyıq" (5, 560).

Məlumdur ki, dövlətlərarası siyasi münaqişələr onların güc potensiallarını müəyyənləşdirir və tərəflər bir-birilərinin "gücü" haqqında informasiya əldə etmiş olurlar. Düşmənə nisbətən daha "zəif"olduğunu dərk edən münaqişə subyekti bu istiqamətdə əsaslı islahatlar aparmalı olur. Belə islahatların əsasını isə ilk növbədə, hərbi potensialın artırılması istiqamətində görülən işlər təşkil edir. Hətta keçmiş münaqişə subyektləri dinc qonşuluq şəratində yaşasalar belə hərbi islahatları davam etdirirlər. Uzun illər Böyük Britaniyanın baş naziri vəzifəsində çalışmış "dəmir ledi" ləqəbli M.Tetçer deyirdi: "mən, nüvə silahsız deyil, müharibəsiz sülhün olmasının tərəfdarıyam" (6, 39).

Beləliklə siyasi münaqişənin neqativ funksiyaları haqqındakı təhlillərimizi ümumiləşdirərək aşağıdakı nəticəyə gəlmək olar:

-siyasi münaqişələr zamanı zorakılıq əsas mübarizə və ya tənzimləmə vasitəsi rolunda çıxış edir. Bununla yanaşı siyasi münaqişə hərbçilərlə yanaşı çoxsayı dinc əhalinin də tələf olmasına səbəb olur;

-siyasi münaqişə cəmiyyətin siyasi, iqtisadi, sosial, mədəni inkişaf dinamikliyini zəiflədir.

-siyasi münaqişələr nəticəsində yeni siyasi dəyər və normaların meydana gəlməsi ilə diktatura və ya totalitar siyasi rejimlər bərqərar ola bilər;

-siyasi münaqişə qruplararası düşmənçilik meyllərini dərinləşdirməklə yanaşı cəmiyyətdə pesimist əhval-ruhiyyəyə və mənəviyyatın aşılanmasına gətirib çıxarır;

-siyasi münaqişə özündən sonra cəmiyyətdə daha kəskin münaqişə ocaqlarının yaranmasına səbəb ola bilər və s.

Münaqişənin təbiətinin təhlili göstərir ki, o, cəmiyyətin inkişafının başlıca elementlərindən biridir. Elə buradaca münaqişənin ilkin pozitiv funksiyası üzə çıxır. Münaqişə cəmiyyətdə mövcud olan ümumi gərginliyin nisbətən yumşalmasını şərtləndirir. Yəni münaqişə bir növ "klapan" rolunu oynayaraq gərginliyi ictimai həyatdan ixrac edir (7, 11). İctimai həyatda gərginlik isə orada meydana çıxan müxtəlif mənşəli problemlərdən doğur. Qeyd etmək lazımdır ki, siyasi münaqişədə belə "klapan" həm daxili, həm də xarici müstəvidə oynaya bilər. Ziddiyyətlərin vaxtında aşkar olunaraq dəf edilməsi daha təhlükəli münaqişələrin baş verməsinin qarşısını

alır. Tanınmış rus tədqiqatçısı D.Feldman siyasi münaqişələrin bu funksiyasını cəmiyyətəki sosial gərginliklərin idarə olunması və aradan qaldırılması kimi nəzərdən keçirir. (8)

Münaqişələrin digər pozitiv funksiyası cəmiyyətin birliyinin təmin edilməsi ilə bağlıdır. Bu funksiyanı bir qayda olaraq beynəlxalq siyasi münaqişələr yerinə yetirirlər. Hər hansı bir beynəlxalq siyasi münaqişənin subyekti rolunda çıxış edən dövlətin daxilində xarici düşmənə qarşı eyni mövqeden çıxış etmə, yəni, müxtəlif siyasi qüvvələrin həmrəyliyi müşahidə olunur. Belə şəraitdə cəmiyyətdə mənəvi-siyasi birlik nəzərəçarpacaq dərəcədə möhkəmlənir və daxili siyasi ziddiyyətlər müvəqqəti olsa da kənara qoyulur. Cəmiyyət tam şəkildə xarici düşmənlə mübarizə aparan siyasi hakimiyyəti dəstəkləyir və onun ətrafında birləşir.

Beynəlxalq siyasi münaqişələr baş verən zaman və ya baş vermə təhlükəsi olduqda vətəndaşların hüquq və azadlıqları məhdudlaşdırılır. Belə hallar demək olar ki, bütün siyasi sistem və rejimlərdə müşahidə olunur. Tanınmış amerikalı siyasətçi C.Medisonun fikrincə ölkədə vətəndaşların hüquq və azadlıqlarının məhdudlaşdırılması bir qayda olaraq hər hansı real və ya uydurma xarici təhlükənin mövcudluğu ilə əsaslandırılır. C.Medison belə bir vəziyyəti bütün ölkələr üçün ümumi qanunauyğunluq hesab edir (9, 400).

Münaqişənin digər bir "mübahisəli" funksiyasını da qeyd etmək olar. Ona görə "mübahisəli" qeyd edirik ki, bu funksiyanın hansı səviyyədə neqativ və ya pozitiv olmasını müəyyənləşdirmək çətindir. Belə ki, siyasi münaqişələr iştirakçılarının "güc" potensialını üzə çıxarır. Burada ölkələrin əsasən iqtisadi və hərbi potensialları nəzərdə tutulur. Münaqişə bu funksiyanı yerinə yetirməklə yanaşı münaqişə tərəflərinə bir-birilərinin strategiyası və hərbi taktikası haqqında da informasiya əldə etməyə imkan verir.

Əksər tədqiqatçıların fikrincə müharibə ölkənin hərbi və iqtisadi qüdrətinin ən düzgün göstəricisidir. Bəzən dinc şəraitdə ölkənin qeyd edilən potensialının səviyyəsini düzgün qiymətləndirmək mümkün olmur. Bəzən isə müharibə iştirakçısı olan ölkələrin özləri belə öz real potensiallarını müəyyənləşdirməkdə çətinlik çəkirlər. Məhz müharibədən sonra onlar zəif və güclü tərəflərini müəyyənləşdirə bilirlər və buna uyğun olaraq yeni islahatlara start verilir. Beləliklə, münaqişənin bu funksiyasının mahiyyəti subyektlərin qüvvələr nisbətini ortaya qoymaqdan ibarətdir.

Siyasi münaqişələrə xas olan daha bir pozitiv funksiya kimi onun cəmiyyətdə stabilləşdirici rolunu oynaması qeyd edilir. İstənilən sistemin stabilliyini öz maraqlarını təmin etməyə çalışan subyektlərinin qarşılıqlı fəaliyyətlərinin və ya qarşıdurmalarının məntiqi nəticəsi kimi nəzərdən keçirmək olar. Cəmiyyətdə stabillik də bərabərlik kimi konkret siyasi məna kəsb edir.

Siyasi münaqişələrin daha bir sıra konkret pozitiv funksiyalarını qeyd etmək olar. Belə funksiyalar içərisində ən əhəmiyyətlisi kimi siyasi münaqişələrin cəmiyyətdə sosial-siyasi islahatların həyata keçirilməsi üçün katalizator rolunu oynaması göstərilir.

Daxili siyasi münaqişələr zamanı sosial-siyasi islahatların həyata keşirilməsi nəzərdə tutulur ki, onların reallaşdırılması cəmiyyət tərəfindən artıq uzun zamandan bəri tələb olunur və gözlənilir. Məhz siyasi münaqişələr həmin islahatların həyata keçirilməsini sürətləndirən amil rolunu oynayır. Münaqişə sosial prosesləri stimullaşdırmaqla cəmiyyətin dinamikliyini əhəmiyyətli dərəcədə artırır. Münaqişə həm də

müəyyən sosial-siyasi islahatların həyata keçirilməsini tələb etməklə iqtisadi, siyasi, sosial inkişafı əngəlləyən maneələrin aradan qaldırılmasına kömək edir (10, 120).

Siyasi münaqişələrin baş verməsi cəmiyyətdə mövcud olan siyasi qüvvələrə öz mövqelərini daha dəqiq müəyyənləşdirmək imkanı verir. Əksər cəmiyyət üzvləri münaqişəsizlik şəraitində özlərinin siyasi mövqelərini sərgiləməkdə çətinlik çəkirlər və ya ümumiyyətlə cəmiyyətdə mövcud olan problemlərlə bağlı hansı siyasi tələblərlə çıxış etməli olduqlarını bilmirlər. Siyasi münaqişə baş verdikdə isə onlar cəmiyyətdə mövcud olan ziddiyyətlər haqqında informasiya əldə etməklə yanaşı, həm də konkret olaraq hansı mövqede dayanmalı olduqlarını da müəyyənləşdirirlər. Bu zaman cəmiyyət üzvlərinin həm də inteqrasiyası baş verir. Yəni oxşar maraqlar insanların birləşərək eyni mövqeden çıxış etmələrini şərtləndirmiş olur. Belə bir inteqrasiya prosesi insanlar arasında olduğu kimi sosial-siyasi qruplar və ya dövlətlər arasında da baş verə bilər.

Siyasi münaqişələrin pozitiv funksiyalarından danışarkən mühüm bir faktı da qeyd etmək lazımdır ки, cəmiyyət onun üçün xarakterik olan daxili münaqişələr sayəsində bütöv bir tam kimi qorunub saxlanır. Cəmiyyətdə çoxsaylı münaqişələrin olması, cəmiyyətin, vətəndaş müharibəsinə, inqilablara və digər anomaliya formalarına gətirib çıxara biləcək qütbləşmənin qarşısını almış olur.

Beləliklə biz, siyasi münaqişələrin pozitiv və ya qismən pozitiv hesab edilən funksiyalarını nəzərdən keçirdik. Siyasi münaqişələrin pozitiv funksiyaları haqqında qeyd etdiklərimizi qruplaşdıraraq ümumi şəkildə aşağıdakı kimi göstərmək olar:

- siyasi münaqişələr cəmiyyətdə mövcud olan ziddiyyətlərdən və problemlərdən xəbər verir;
- siyasi münaqişələr cəmiyyətdə olan gərginliklərin nisbətən yumşalmasını və aradan qalxmasını şərtləndirir;
- siyasi münaqişə cəmiyyətdə stabilliyin yaradılmasını şərtləndirən mühüm amil rolunda çıxış edir;
- siyasi münaqişələr (xüsusilə də beynəlxalq siyasi münaqişələr) ölkədə ciddi islahatların reallaşdırılmasına və cəmiyyətdə yeni norma və dəyərlər sisteminin yaranmasına səbəb ola bilər və s.

Göründüyü kimi, siyasi münaqişənin pozitiv və neqativ funksiyaları haqqında birmənalı şəkildə fikirlər irəli sürmək çətindir.

## ƏDƏBİYYAT


1. Parsons T. The Social System N.-Y., 1951, p.267.
2. Freud S. Psycho-Analysis // Collected Papers. London: The Hogarth Press, 1950, V, p. 121.
3. География милитаризма. М.: Юпитер, 1984, с.14.
4. Галкин А.А. Общественная стабильность: некоторые теоретические подходы. МЭиМО, 2006, №9, с.57-58.
5. Клаузевиц К. О войне. М.: Восток, 1934, с.560.
6. Гусейнов А.А. Понятия насилия и ненасилия //Вопросы философии. 1994, №6, с.39.
7. Козер Л.А. Функции социального конфликта. М.: Идея-Пресс, 2000, 193 с.
8. Фельдман Д.М. Отечественная политология перед фундаментальными проблемами исследования международного конфликта. Вест.Моск.ун-та. Серия 18. 2001, №1, с. 41-53.
9. Шлезингер Артур М. Циклы американской истории. М.: Юнити, 2005, с.400.
10. Козырев Г.И. Конфликтология. Социальные конфликты в общественной жизни.// Социально-гуманитарные знания, 2008, №1, с.120.

## НЕГАТИВНЫЕ И ПОЗИТИВНЫЕ ФУНКЦИИ КОНФЛИКТОВ В ОБЩЕСТВЕ

**ЭЛЬШАД МИРБАШИР оглы**

### РЕЗЮМЕ

Негативные и позитивные функции конфликтов в обществе отличаются своими характерными чертами. Прежде всего, конфликт воспринимается как негативное событие. Функции политических конфликтов всегда являлся объектом спора между учеными.

В данной статье глубоко анализируется негативные и позитивные функции политических конфликтов.

## NEGATIVE AND POSITIVE FUNCTIONS OF CONFLICTS IN THE SOCIETY

**ELSHAD MIRBASHIR oglu**

### SUMMARY

Negative and positive functions of conflicts are distinguished for their characteristic features in the society.

First of all, a conflict is accepted as an undesirable circumstance. Functions of political conflicts have always been a subject of arguments among scholars. The article presents comprehensive analysis of negative and positive functions of political conflicts in the society.